# ŞƏRQ qapısı



*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 4 (21.414)**

***8 yanvar 2016-cı il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


***Son illər muxtar respublikamızın hərtərəfli tərəqqisini özündə əks etdirən, inkişaf və quruculuq ünvanına çevrilmiş Şərur rayonunun siması xeyli dəyişmiş, çoxlu sayda sosial obyektlər, xidmət şəbəkələri, irili-xırdalı onlarla istehsal və emal müəssisələri fəaliyyətə başlamış, yollar, körpülər salınmış, meliorasiya qurğuları istifadəyə verilmişdir.***

## Ötən il həyata keçirilən tədbirlər Şərur rayonunun sosial-iqtisadi inkişafını daha da sürətləndirmişdir



Bəli, bu gün Şərur əsl yüksəliş dövrünü yaşayır. Ölkə başçısı tərəfindən imzalanan, icrasına xüsusi diqqət və tələbkarlıqla yanaşılan regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bütün bölgələr kimi, Şərurun da inkişafı özünün yeni müstəvisinə qədəm qoymuşdur. İnsanlar böyük həvəslə qurub-yaradır, sabahlarının bu gündən daha yaxşı olması üçün qüvvələrini əsirgəmirlər. Respublikamızda iqtisadiyyatın inkişafının təmin edilməsi, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, yeni istehsal və emal müəssisələrinin işə salınması, əhalinin yüksək məşğulluq səviyyəsinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızın bu qədim bölgəsini də əhatə etmişdir.

Rayonda hər il yüzlərlə yeni iş yerləri yaradılır, məhsul istehsalı ilbəil artır, xidmət təşkilatlarının fəaliyyəti genişləndirilir, bu hesaba da əhalinin həyat səviyyəsi yüksəlir. İstehsal olunmuş məhsulların əsas hissəsi kənd təsərrüfatının payına düşür. Tikinti, ticarət, sənaye məhsulları, nəqliyyat, poçt və rabitə xidmətləri sahələrində də göstəricilər əvvəlki ili üstələyir. Göstərilən diqqət və qayğıdan bəhrələnən sahibkarların da bu sahədə xidmətləri çoxdur. Əhalinin gəlirlərinin artması ilə əlaqədar çoxsaylı fərdi yaşayış evləri, yardımçı binalar tikilmiş, digər infrastrukturlar yaradılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində 2015-ci ildə 537 nəfər daimi işlə təmin olunmuşdur.

Ötən il də rayonun sosial-iqtisadi həyatının bütün sahələri müsbət irəliləyişlərlə müşahidə edilmişdir. Makroiqtisadi göstəricilər rayonun həm iqtisadi, həm də sosial sahələrinin daha dinamik və sürətlə inkişaf etdiyini göstərir. Hər şeydən əvvəl onu qeyd edək ki, son illər rayonda iş üslubu və metodları, təşkilat-idarəetmə məsələləri daha da təkmilləşdirilmiş, adamlarla aparılan iş ön plana çəkilmiş, icra intizamı, tapşırılmış iş üçün məsuliyyət hissi daha da artmışdır. Başlıca diqqət Azərbaycan Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduqları vəzifələrin, göstəriş və tövsiyələrin uğurla yerinə yetirilməsinə yönəldilmişdir.

Davamlı xarakter alan sosial obyektlərin tikintisi 2015-ci ildə də davam etdirilmişdir. Şərur şəhərində aviakassa binasının, Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin, Buxxananın, Kürçülüdə, Axaməddə, Kürkənddə və Yuxarı Yaycıda kənd və xidmət mərkəzlərinin, Yengicə kəndində Azərbaycan Vətən müharibəsi əlili üçün üçotaqlı mənzilin, Kürkənddə və Aşağı Aralıqda mərasim yerlərinin, Aşağı Aralıqda dəyirmanın tikintisi başa çatdırılmışdır. Kürkənddə 216, Cəlilkənddə 342, Axaməd kəndində 192, Yuxarı Yaycı kəndində 144, Kürçülü kəndində 234 şagird yerlik məktəb binaları, Cəlilkənddə həkim ambulatoriyası, mədəniyyət evi, kənd və xidmət mərkəzləri istifadəyə verilmişdir. Kənd mərkəzləri üçün inşa olunmuş inzibati binalarda inzibati ərazi dairəsi üzrə nümayəndələrin, bələdiyyələrin, mədəniyyət müəssisələrinin, poçt, rabitə və baytarlıq xidmətlərinin, polis sahə müvəkkillərinin fəaliyyətinə normal iş şəraiti yaradılmışdır. Ərazilərdə abadlıq, yaşıllaşdırma işləri görülmüş, su xətləri çəkilmiş, elektrik və telefon xətləri, transformator yarımstansiyaları təzələnmiş, yollar əsaslı şəkildə yenidən qurulmuşdur.

Hazırda Şərur şəhərindəki 2 nömrəli tam orta məktəb binasının, Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün tədris korpusunun və yataqxananın, Oğlanqalada kənd və xidmət mərkəzlərinin, tam orta məktəbin, Xanlıqlar kəndində "İmamzadə" kompleksinin və digər obyektlərin tikintisi, yaxud yenidən qurulması işləri davam etdirilir.

Ələkli kəndi ərazisindəki asfalt-beton zavodu və qum-çınqıl karxanası yol təmiri və tikinti işlərinin sürətlənməsinə imkan yaratmışdır. Bunun nəticəsidir ki, ötən il daxili avtomobil yollarında 1 milyon 931 min 339 manatlıq iş görülmüş, 21,2 kilometr uzunluğunda yola asfalt örtük salınmış, 6,7 kilometr yol əsaslı təmir olunmuşdur.

Aparılan genişmiqyaslı yaşıllaşdırma tədbirləri rayonun simasını tamamilə dəyişmiş, ötən il də daxili imkanlar səfərbər edilməklə yeni yaşıllıqlar salınmışdır. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, 15 hektar sahədə yeni meyvə bağı salınmış, 23,2 hektar bağda bərpa işləri aparılmış, ümumilikdə, 52 min ədəd ağac və gül kolu əkilmişdir.

Şərur aqrar rayondur. Burada xeyli münbit torpaq, kifayət qədər suvarma suyu vardır. Mövcud şəraitdən səmərəli istifadə edilməsi nəticəsində ötən ilin də uğurları yüksək olmuşdur. Belə ki, əkinçiliklə məşğul olanlara göstərilən dövlət dəstəyi bu sahəyə marağı daha da artırmış, əkinəyararlı olan bütün sahələrdə müxtəlif kənd təsərrüfatı bitkiləri əkilib-becərilmişdir. Rayon üzrə 28 min 772 ton taxıl, 20 min 357 ton meyvə, 1435 ton üzüm, 28 min 661 ton tərəvəz, 6 min 476 ton bostan məhsulları, 2 min 504 ton dən qarğıdalı, 11 min 43 ton kartof, 4 min ton soğan istehsal olunmuşdur. Kənd və balıqçılıq təsərrüfatlarından götürülən gəlir 111 milyon 465,1 min manat təşkil etmişdir.

İl ərzində xidmət təşkilatlarının, o cümlədən elektrik və qaz təsərrüfatının inkişaf etdirilməsi, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Qəza vəziyyətində olan elektrik dirəkləri və qaz xətləri təzələnmiş, itkilərin qarşısının alınması, əhalinin dayanıqlı və fasiləsiz elektrik enerjisi, təbii qazla təmin olunması üçün zəruri tədbirlər reallaşdırılmışdır.

Nəqliyyat, informasiya və rabitə sektorunun göstəriciləri də əvvəlki ilin eyni dövrü ilə müqayisədə artmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 6,7 faiz, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 4,1 faiz çoxalmışdır.

Şərurda gedən inkişaf prosesləri, əldə edilən uğurlar bu qədim diyarın sakinlərini sevindirir, gələcəyə inam hissini daha da yüksəldir. Dövlət müstəqilliyimizin bəhrələri Şərurun hər bir guşəsində özünü bariz şəkildə göstərir. Bölgə bu gün abad yaşayış məntəqələri, yolları, bağ-bağçaları, bol məhsul verən əkin sahələri ilə müstəqil Azərbaycan rayonunun canlı nümunəsidir. Bu torpağın hüsnünə tamaşa etdikcə düşünürsən ki, qayğıkeş, zəhmətkeş insanların illərlə davam edən yorulmaz əməyi artıq öz əməli nəticəsini verib. Ümumiyyətlə, rayonda görülmüş işlər, həyata keçirilmiş tədbirlər barədə istənilən qədər danışmaq olar. Bunun nəticəsidir ki, insanların düşüncəsinə qurub-yaratmaq ruhu hakim kəsilib. Bu da sözsüz ki, Şərurun daha gözəl sabahlarından xəbər verir. Sosial-iqtisadi uğurlar artdıqca, quruculuq, abadlıq işləri çoxaldıqca, adamların həyat şəraiti də əsaslı surətdə yaxşılaşır.

***Cari ildə rayonda həyata keçiriləcək işlərin miqyası daha geniş, həcmi əvvəlki ildəkindən böyük olacaqdır. Şərurlular həyata keçirilən dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün daxili imkanlardan və ehtiyatlardan daha səmərəli istifadə edəcəklər.***

**Elman MƏMMƏDOV**

## Soyuducu anbarlar və istixana kompleksləri əhalini qış mövsümündə keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin edir






*Naxçıvan Muxtar Respublikasında dövlətimiz tərəfindən təsərrüfat adamlarına, fermerlərə və fiziki şəxslərə göstərilən diqqət və qayğının nəticəsində aqrar sektorun çoxşaxəliliyi təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 2015-ci ildə də sahibkarlara verilən güzəştli kreditlər hesabına muxtar respublikada soyuducu anbarların, istixana təsərrüfatlarının yaradılması üzrə investisiya layihələri həyata keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən bildiriblər ki, əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, məhsulların tədarükü, saxlanması və satışı infrastrukturunun yaradılması məqsədilə yerli investisiyalar əsasında soyuducu və digər məhsulların saxlanılması üçün anbarların sayı 33-ə, ümumi tutumu 20655 tona çatdırılmışdır. Dövlət maliyyə dəstəyi ilə yaradılmış, bilavasitə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq kənd təsərrüfatı məhsullarının tədarükünün həyata keçirilməsi üçün tutumu 5030 ton olan ixtisaslaşdırılmış 9 soyuducu anbar və sahibkarlıq subyektlərinin istehsal məhsullarının saxlanması üzrə tutumu 6070 ton olan 13 ixtisaslaşdırılmış ərzaq məhsulları üçün anbar mövcuddur. Bunlardan başqa, sahibkarlıq subyektlərinin məhsullarını saxlamaq üçün tutumu 9555 ton olan 11 anbar fəaliyyət göstərir.

Muxtar respublikanın aqrar sektorunun inkişafında mühüm element kimi soyuducu anbarların istifadəyə verilməsi əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatına şərait yaratmışdır. 2015-ci ildə əhalinin mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə belə məhsullar soyuducu anbarlara tədarük edilmiş və keyfiyyəti daim nəzarətdə saxlanılmışdır. 1 iyul 2015-ci il tarixdən 4 yanvar 2016-cı il tarixədək soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş cəmi 2968 ton məhsul tədarük olunmuşdur. Bunun da 2040,89 tonu kartof, 532,93 tonu soğan, 29,30 tonu ərik, 309,31 tonu alma, 3,50 tonu armud, 28,30 tonu şaftalı, 20,20 tonu üzüm, 3,00 tonu kələm, 0,32 tonu sarımsaq məhsuludur. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 1641 tonunun satışı həyata keçirilmiş, 1 iyul 2015-ci il tarixə yaranmış 152 ton qalıq da daxil olmaqla, ümumilikdə, 2016-cı il yanvarın 4-nə soyuducu anbarlarda məhsul qalığı 1479 ton təşkil etmişdir.

Əhalinin qış aylarında faraş tərəvəz məhsulları ilə təmin olunması da mühüm məsələlərdən biridir. Bu sahəyə göstərilən qayğı sayəsində muxtar respublikada 113 min 892 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 21 istixana təsərrüfatı fəaliyyət göstərir.

Bundan əlavə, fərdi təsərrüfatlarda, ümumilikdə, 100 min kvadratmetrdən çox sahədə sadə üsulda yaradılmış istixanalarda müxtəlif tərəvəz məhsulları əkilmişdir.

Muxtar respublikada mövcud olan ixtisaslaşdırılmış istixana təsərrüfatları tərəfindən 64 min 40 kvadratmetr sahədə pomidor, 35 min 504 kvadratmetr sahədə xiyar, 3000 kvadratmetr sahədə çiyələk, 900 kvadratmetr sahədə badımcan, 400 kvadratmetr sahədə göbələk, 6 min 232 kvadratmetr sahədə bibər, göyərti, brokoli, kahı və şitil olmaqla, ümumilikdə, 110 min 76 kvadratmetr sahədə əkin işləri aparılmışdır.

1 yanvar 2015-ci il tarixdən 4 yanvar 2016-cı il tarixədək ixtisaslaşdırılmış istixana komplekslərində yetişdirilən 1592,2 ton məhsul istehlak bazarının davamlı təchizatını təmin etmişdir. Bunun 957,8 tonunu pomidor, 604,5 tonunu xiyar, 4,8 tonunu göbələk, 16,2 tonunu badımcan, 7,4 tonunu bibər, 1,5 tonunu göyərti təşkil etmişdir.

**Xəbərlər şöbəsi**

## Tədbirlər planının uğurlu icrası elektron ödəniş məkanının formalaşdırılmasını sürətləndirmiş və nağdsız hesablaşmaların həcmini xeyli artırmışdır



***Müasir cəmiyyətdə nağdsız ödəniş sisteminin inkişafı və elektron ödəniş xidmətlərindən istifadənin genişlənməsi iqtisadiyyatda innovativliyin və şəffaf fəaliyyətin göstəricisidir.***

Bu gün dünya təcrübəsinə baxsaq, görərik ki, nağdsız dövriyyənin həcminin artırılması istiqamətində nağd ödənişlərin yuxarı həddi üçün limitin tətbiq edilməsi bu sahədə kifayət qədər uğurlara nail olmağa imkan verir. Eyni zamanda beynəlxalq təcrübədə nağdsız ödənişlərin genişləndirilməsi üçün stimullaşdırıcı tədbirlərdən və nağd ödənişlərə məhdudiyyətin qoyulması üsullarından da geniş istifadə olunur. Məsələn, Kolumbiyada malların (işlərin, xidmətlərin) dəyəri ödəniş kartları ilə ödənilərkən istehlakçılardan tutulan ƏDV-nin məbləği 2 faiz həcmində azaldılır. İsveçdə plastik kartlar vasitəsilə il ərzində edilən ödənişlərin 2 faizi həcmində əlavə bonus təqdim olunur. Macarıstanda POS-terminalların quraşdırılması üçün 3 il müddətinə subsidiyalar verilir. Bundan əlavə, bir sıra ölkələrdə nağd hesablaşmaların minimuma endirilməsi məqsədilə qanunvericilikdə məhdudiyyətlər qoyulmuşdur.

Bu gün beynəlxalq iqtisadi arenada öz iqtisadi inkişaf göstəriciləri ilə çoxlarına nümunə olan ölkəmiz də bu iqtisadi axından kənarda qala bilməz. Ona görə də Azərbaycanda nağdsız ödəniş sisteminin əhatə dairəsinin genişləndirilməsi və nağdsız ödəniş həcminin artırılmasının beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf etdirilməsi ölkə iqtisadiyyatının prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Muxtar respublikada da hər bir təsərrüfat subyektinin və geniş əhali təbəqəsinin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsi, maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, iqtisadi dövriyyədə olan pul kütləsinin nağdsız dövriyyəyə cəlbi, əhalinin nağdsız hesablaşmalara keçid vərdişlərinin formalaşdırılması, dövlət orqanlarının və digər kütləvi xidmət qurumlarının daxili informasiya sistemlərinin elektron ödəniş sistemlərinə texnoloji inteqrasiyasının təmin olunması nağdsız ödənişlərin inkişafına diqqəti artırmağı zəruri edirdi. Bu faktorlar nəzərə alınaraq muxtar respublikamızda nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün qəbul olunan və 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"nın icrası uğurla başa çatdırılmışdır.

Ötən müddət ərzində bank sektorunun qarşısına qoyulmuş öhdəliklər planlı şəkildə həyata keçirilmiş və effektiv nəticələrin əldə edilməsinə nail olunmuşdur. Belə ki, beynəlxalq təcrübə əsas götürülərək nağdsız ödənişlərin iqtisadi artıma təsirini gücləndirmək məqsədilə geniş nağdsız ödəniş infrastrukturu yaradılmış və müxtəlif stimullaşdırıcı tədbirlər mərhələli şəkildə həyata keçirilmişdir.

Tədbirlər planının başlanğıc mərhələsində infrastruktur imkanlarının genişləndirilməsi məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmış və quraşdırılmış POS-terminal aparatları vasitəsilə kütləvi xidmət göstərən təşkilatlar üzrə kommunal xidmət haqlarının əhali tərəfindən nağdsız qaydada ödənilməsi təmin edilmişdir.

İlk növbədə, infrastruktur alətlərinin artırılması və geniş nağdsız ödəniş şəbəkəsinin formalaşdırılması əsas məqsəd kimi qarşıya qoyulmuş və tədbirlər planının icra müddəti ərzində əhəmiyyətli artıma nail olunmuşdur.

Əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı əgər 1 yanvar 2014-cü il tarixə 142-si Naxçıvan şəhəri, 106-sı isə kənd yaşayış məntəqələrində və rayon mərkəzlərində olmaqla, 248 ədəd təşkil edirdisə, tədbirlər planında nəzərdə tutulmuş icra müddəti ərzində bu göstərici 4 dəfədən çox artmış və 1 dekabr 2015-ci il tarixə 478-i Naxçıvan şəhəri, 536-sı isə rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində olmaqla, 1014 ədəd təşkil etmişdir. Eyni zamanda sakinlərin kommunal xərclərinin ödənişlərinin rahat şəkildə təmin edilməsi məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Naxçıvanqaz" İstehsalat Birliyində, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində və "Naxçıvan Su-Kanalizasiya" Açıq Səhmdar Cəmiyyətində, ümumilikdə, 199 ədəd POS-terminal quraşdırılmışdır.

Digər ödəniş vasitələrindən sayılan bankomatların sayında bu müddət ərzində 6 ədəd artım olmuşdur. Əgər 1 yanvar 2014-cü il tarixə bu göstərici 53-ü Naxçıvan şəhəri, 39-u kənd və rayon mərkəzlərində olmaqla, 92 ədəd idisə, 1 dekabr 2015-ci il tarixə isə 55-i Naxçıvan şəhəri, 43-ü kənd yaşayış məntəqələrində və rayon mərkəzlərində olmaqla, 98 ədəd təşkil etmişdir.

Ödəniş kartlarının sayında da kifayət qədər artım müşahidə olunmuşdur. Belə ki, 1 yanvar 2014-cü il tarixə ödəniş kartlarının sayı 183 min 72 ədəd olduğu halda, bu göstərici 1 dekabr 2015-ci il tarixə 38 min 333 ədəd artımla 221 min 405 ədədə çatmışdır. Hal-hazırda bu göstərici muxtar respublika sakinlərinin hər iki nəfərdən birinin ödəniş kartı ilə təmin edildiyini deməyə əsas verir və, bununla da, dövlət sektorunda əməkhaqlarının ödəniş kartları vasitəsilə nağdsız şəkildə ödənilməsi prosesi başa çatdırılmışdır.

Bütün bunlarla yanaşı, kommunal xidmət haqlarının internet üzərindən elektron ödəniş sistemləri vasitəsilə ödənilməsi imkanları da yaradılmış, digər ödənişlərin nağdsız qaydada aparılması məqsədilə müvafiq addımlar atılmışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublika sakinlərinin ödəniş kartları vasitəsilə vergi və rüsumları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarını və gömrük rüsumlarını elektron ödəniş formasında apara bilmələri üçün lazımi infrastruktur da yaradılmışdır.

Əlbəttə ki, nağdsız ödənişlərin inkişafı üçün lazımi infrastrukturun yaradılması ilə yanaşı, maarifləndirici tədbirlərin keçirilməsi və institusional mühitin formalaşdırılması da zəruridir. Bu baxımdan tədbirlər planının icrasının ilkin mərhələsində nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin kütləvi təbliği ilə əlaqədar muxtar respublikanın şəhər və rayonlarında əhali arasında maarifləndirici tədbirlər keçirilmiş, orta, orta ixtisas və ali təhsil müəssisələrində nağdsız ödəniş vərdişlərini inkişaf etdirmək məqsədilə xüsusi məşğələlər təşkil edilmişdir.

Tədbirlər planında nəzərdə tutulmuş işlərin icrasının vəziyyətini cəmiyyətə çatdırmaq məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən "Nağdsız ödənişlər: mövcud vəziyyət, inkişaf perspektivləri" adlı jurnal nəşr edilmişdir. Jurnalda görülmüş işlərlə bərabər, nağdsız ödənişlərlə bağlı ictimaiyyəti maraqlandıran bir çox mövzulara da toxunulmuş və muxtar respublikanın bütün rayonlarının bu sahədə gördükləri işlərin nəticələri ayrı-ayrılıqda təhlil edilmişdir.

Tədbirlər planında qarşıya qoyulan vəzifələrdən biri də infrastrukturun genişləndirilməsi və maarifləndirici tədbirlərin aparılması ilə yanaşı, kart sahibləri arasında stimullaşdırıcı tədbirlərin keçirilməsi idi. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müvafiq addımlar atılmışdır. Müxtəlif mərhələlərdə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları ilə alış-veriş zamanı aparılan əməliyyatlara güzəştlər tətbiq olunmuşdur. Bunlarla yanaşı, tədbirlər planının icra müddəti ərzində Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin birgə apardığı tədbirlərin nəticəsi kimi muxtar respublikada nağdsız ödənişlər istiqamətində seçilmiş vətəndaşlara hədiyyələr verilmişdir.

Həyata keçirilmiş genişmiqyaslı tədbirlər nağdsız ödəniş həcminin artımına öz təsirini göstərmişdir. Əgər 2014-cü ilin yanvar ayında muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 246 min manat təşkil edirdisə, bu göstərici 2015-ci ilin noyabr ayında 2 milyon 146 min manat olmuşdur.

Ümumilikdə, tədbirlər planında nəzərdə tutulmuş müddət ərzində nağdsız ödəniş dövriyyəsi 29 milyon 152 min manata çatmışdır. 2014-cü ilin yanvar-dekabr aylarında muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların 8 milyon 931 min manatı quraşdırılmış POS-terminallar vasitəsilə, 3 milyon 582 min manatı isə internet və digər ödəniş sistemləri vasitəsilə həyata keçirilmişdir. 2015-ci ilin yanvar-noyabr aylarında isə muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 16 milyon 639 min manat təşkil etmişdir ki, bunun da 9 milyon 778 min manatı quraşdırılmış POS-terminalların, 6 milyon 861 min manatı isə internet və digər ödəniş vasitələrinin payına düşmüşdür.

İnfrastrukturun genişləndirilməsi, institusional mühitin formalaşdırılması və stimullaşdırma tədbirlərinin mütəmadi şəkildə aparılmasına baxmayaraq, bu sahədə çatışmazlıqlar da özünü büruzə verməkdədir. Bu isə ictimaiyyətin hələ də nağdsız ödənişlərə tam olaraq üstünlük verməməsindən irəli gəlir. Və hələ də bankomatların qarşısında nağd pul çəkmək üçün növbələrin yarandığını müşahidə etmək mümkündür. Bankomatdan, sadəcə, nağd pul çəkmək üçün istifadə edən vətəndaşlarımız isə kifayət qədərdir. Halbuki bankomat adlanan bu ödəniş aləti, əslində, bir çox nağdsız əməliyyatları həyata keçirməyə də imkan verir.

Bütün bu problemlərin həllində ziyalılarımızın da üzərinə böyük məsuliyyət düşür. Cəmiyyətdə hər zaman fikirlərinə böyük rəğbət göstərilən ziyalılarımızın və bu istiqamətdə tədbirlər planında üzərinə vəzifə qoyulan bütün digər strukturların birgə fəaliyyəti nəticəsində gələcək müddət ərzində böyük uğurlara nail olmaq mümkündür.

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin qarşıya qoyduğu əsas məqsədlərdən biri də məhz tədbirlər planında nəzərdə tutulmuş digər tədbirlərin bundan sonra da uğurla davam etdirilməsi və bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirməklə yüksək göstəricilərə nail olmaqdır.*

**Elçin ƏLİYEV**
*Azərbaycan Respublikası Mərkəzi Bankının*
*Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi*

***Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1336-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 23 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilən dəyişikliklər torpaqlardan düzgün istifadə qaydalarını daha da gücləndirib,***

## Torpaq sahələrindən qanunsuz istifadə və özbaşına tikintilərlə bağlı qanunvericilik tədbirləri gücləndirilib

***torpaq üzərində mülkiyyət, torpaqdan istifadə və ya icarə hüququnu pozma və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə dair qanunsuz qərarvermə ilə əlaqədar cəzaları sərtləşdirib.***

Qeyd edək ki, Məcəllənin 188-1-ci-188-4-cü maddələrində nəzərdə tutulmuş əməllər ilə mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutmaya görə cəzalar müəyyən edilib. Belə qanunsuzluqlara yol verənlər səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işləri aparanlara isə 1 ildən 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Habelə qanunsuz hasarlama, özbaşına zəbt olunma və kənd təsərrüfatı təyinatlı torpaqlarda digər qanunazidd əməllərə yol verilərsə, həmin şəxslər 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Eyni zamanda əgər belə hərəkətlər təkrar, eləcə də qulluq mövqeyindən istifadə edilməklə törədilərsə, 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunması nəzərdə tutulub.

Dəyişikliklər nəzərdə tutulmuş əməllərin dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri barədə qəbul edilən qanunsuz qərarları da əhatə edir. Belə ki, Məcəllənin 314-1.1-ci və 314-1.2-ci maddələrində dövlətin mülkiyyətində olan torpaqların bələdiyyələrə, fiziki və ya hüquqi şəxslərə mülkiyyətə (istifadəyə və ya icarəyə) verilməsi barədə qanunsuz qərar qəbul edən vəzifəli şəxslərin 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılması müəyyənləşdirilib. Həmçinin belə şəxslər 3 ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilirlər. Bunlarla yanaşı, belə cəza tədbirləri dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinə də şamildir. Bu torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi barədə qərar qəbul edilməsi də cinayət məsuliyyətinə səbəb olur. Belə ki, belə qərarlar qəbul edən vəzifəli şəxslər məsuliyyətə cəlb oluna və 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrum edilə bilərlər.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi həmin sərəncamın icrası ilə bağlı monitorinq-araşdırma tədbirlərinə başlayıb. Belə ki, monitorinq qrupları tərəfindən muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Naxçıvan şəhərində də reydlərə start verilib. Torpaqların özbaşına zəbt olunması, qanunsuz tikintilərin aparılması, torpaqlardan təyinatına zidd istifadə araşdırılır, kənd təsərrüfatı təyinatlı torpaqlarda qanunsuz yaşayış evi və ya digər obyektlərin tikintisi, torpaqların təyinatının qanunsuz dəyişdirilməsi, dövlət torpaqlarının zəbt olunması kimi hallar müəyyən edilir. Çünki belə qanunsuz hərəkətlər nəticəsində kənd təsərrüfatı təyinatlı torpaqların sahəsi azalır, torpağın məqsədli istifadəsində maneələr ortaya çıxır, qanunsuz tikililərin sayı artır. Torpaq sahələrinin özbaşına olaraq təyinatı nəzərə alınmadan istifadəyə, icarəyə və ya mülkiyyətə, özbaşına istifadə hallarına yol verilməsi, zəbt olunmuş sahələrdə qanunazidd olaraq tikintilərin aparılması sonda narazılıqlara səbəb olur və hüquqi mübahisələrə yol açır. Analoji hadisələrin qarşısını almaq məqsədilə aşkar olunmuş hüquq pozuntuları ilə bağlı müvafiq qanunvericiliyə, eləcə də adıçəkilən sərəncama uyğun olaraq müvafiq tədbirlər görüləcək, inzibati sanksiyalar tətbiq olunacaq, konkret məsuliyyətə cəlbolunma və ya sərt cəza tədbirlərinin tətbiqi ilə bağlı qərarlar qəbul ediləcəkdir.

Qeyd edək ki, belə monitorinqlər komitənin torpaq sahələrinə nəzarət üzrə torpaq müfəttişləri tərəfindən həyata keçirilir. Məqsəd muxtar respublikada torpaq münasibətlərinin daha ciddi şəkildə qorunması ilə dövlət, bələdiyyə və özəl mülkiyyətə münasibətdə hüquqların və mənafelərin daha da səmərəli olmasının təmin edilməsidir.

Sərəncamın icrasını təmin etmək məqsədilə komitənin yerli qurumları fəaliyyətini digər aidiyyəti qurumlarla əlaqələndirir. Yerli icra hakimiyyətləri, fiziki və hüquqi şəxslər, bələdiyyələr və aidiyyəti dövlət qurumları ilə fəaliyyətin koordinasiyası torpaq qanunvericiliyinə daha effektiv əməl olunmasına imkan verir və muxtar respublikada torpaq münasibətlərinin səmərəli şəkildə tənzimlənməsinə, mülkiyyət hüquqlarının yüksək səviyyədə təmin olunmasına şərait yaradır.

**Dünyamalı BABAYEV**
*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Naxçıvan Şəhər İdarəsinin müdiri*

# Naxçıvan muzeyləri ötən il daha çox ziyarətçi qəbul edib

***Muzeylər istənilən bölgənin tarixi keçmişini özündə yaşadan mühüm mədəniyyət müəssisələridir. Profilindən asılı olmayaraq, muzeylər istənilən ölkə və yaxud şəhərlə tanışlıqda mühüm rol oynayır. Buna görə də turist səfərlərində ən yaddaqalan obyektlər sırasında muzeylər öndə gəlir. Hətta bu maraq bəzən o qədər yüksək olur ki, məşhur bir muzeyi görmək üçün həmin şəhərə getmək istəyənlərin sayı da artır. Təbii ki, belə maraqlar həmin muzeylərin uzun illərdən bəri aparılmış düzgün təbliğatının sayəsində mümkün olur. Ancaq məsələ ondadır ki, əgər istənilən bir muzey düzgün təbliğ olunursa, həmin muzeyin yerləşdiyi region, bölgə, şəhər və sair də dolayısı ilə təbliğ edilir. Bu da, son nəticədə, ölkəyə turist axınının artmasına səbəb olur.***



*Naxçıvan Dövlət Xalça Muzeyi*

Aparılan tədqiqatlar onu göstərir ki, informasiyanın daşınması və yayılmasında heç bir kütləvi informasiya vasitəsi turistlər qədər real və obyektiv olmur. Bunu da unutmayaq ki, sosial sorğulara görə, turistlər getdikləri ölkə, şəhər və yaxud muzeylər haqqında təəssüratlarını ən azı beş nəfərlə bölüşür. Məhz bu baxımdan mədəniyyətin təbliğində muzeylər mühüm rol oynayır. Eyni zamanda nəzərdən qaçırmayaq ki, muzeylərlə tanışlıq insanlarda mədəni istirahətin dəyərləndirilməsi kimi artıq öz təsdiqini çoxdan tapmış ən səmərəli vasitədir. Digər tərəfdən muzeylər mühüm maarifləndirmə obyektləridir. Təbii ki, müxtəlif informasiya vasitələrindən (kitab, qəzet, film, internet və sair) aldığımız məlumatlardan fərqli olaraq, öyrənmək istədiyimiz faktları birbaşa mənbəyindən və fiziki təmasda ikən almaq daha maraqlı və yaddaqalandır. Həm də buna görə bir çox muzeylər elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərir.

Qeyd edək ki, Naxçıvan çox qədim bir məkandır. Bu məkanda tarixlə mədəniyyət min illərdir ki, birgə addımlayır. Regionun bu cür zənginliyi muxtar respublikada fəaliyyət göstərən muzeylərdə də öz əksini tapıb. Naxçıvan Muxtar Respublikasının qədim tarixi keçmişə, zəngin mədəniyyətə, milli dəyərlərə, faydalı qazıntılara, müxtəlif iqlim qurşaqlarına malik olması, üstəgəl burada yaşayan əhalinin keçmişdən bu günümüzə daşınan tolerant həyat tərzi (sadalanan istiqamətlər üzrə dünyada xeyli muzeylər var) bu regionda müxtəlif profilli muzeylərin yaradılmasına və fəaliyyət göstərməsinə imkan verir. Bu sahə ilə bağlı son 20 ildə muxtar respublikada xeyli iş görülüb – yeni muzeylər yaradılıb, mövcud muzeylərin binaları əsaslı şəkildə təmir olunub, eksponatların sayı dəfələrlə artırılıb. Eyni zamanda muzey işçilərinin hazırlığı diqqət mərkəzində saxlanılıb, onların normal fəaliyyəti üçün mühüm tədbirlər həyata keçirilib. Görülən işlərin nəticəsidir ki, hazırda muxtar respublikada Dövlət Rəsm Qalereyası da daxil olmaqla, 29 müxtəlif profilli muzey mövcuddur və bu muzeylərin 13-ü Naxçıvan şəhərində yerləşir. Bunlardan "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi istisna olmaqla, bütün muzeylərin qapısı ziyarətçilərin üzünə açıqdır.

Ancaq etiraf etmək lazımdır ki, indiyədək vətəndaşlarımız tərəfindən muzeylərə maraq o qədər də yüksək olmayıb. Bunun isə bir sıra səbəbləri var. Çünki biz heç zaman istirahət mədəniyyətində muzeylərin yerini təyin etməmişik, ailədə övladlarımıza muzeylərin əhəmiyyəti haqqında söhbət açmamışıq, onları bu sahədə maarifləndirməmişik. Ancaq bəzi ölkələrdə muzeylərin fəaliyyəti cəmiyyətlə sıx əlaqəli qurulub. Xüsusilə uşaq və gənclərin dünyagörüşünün formalaşmasında, yaşadıqları ölkənin dəyərlərini mənimsəməkdə həmin ölkələrin təhsil müəssisələri ilə muzeyləri arasında sistemli baza mövcuddur. Bu bazanın imkanlarından düzgün istifadə olunması insanlarda sonrakı illərdə də öz tarix və mədəniyyətinə böyük sevgi, dəyərlərinə sədaqət hissi yaşadır. Bəlkə də, bəziləri inanmayacaq, amma bu sevginin təməli də tarixi və görməli məkanlara ekskursiyalarda, muzeylərə ziyarətlərdə qoyulur. Buna görə də dünyanın böyük şəhərlərində bu sevgini hiss etmək üçün insanlar, sözün həqiqi mənasında, pul xərcləyirlər. İndi çoxları düşünə bilər ki, bəhs etdiyimiz muzeylər dünya səviyyəsində tanınmış muzeylərdir və orada, həqiqətən, hər kəsi maraqlandıran böyük həcmdə eksponatlar kolleksiyası var. Ancaq unutmayaq ki, eksponat elə eksponatdır, həmin muzeylər də birdən-birə bu səviyyəyə gəlməyiblər. Əsas olan həmin eksponatların fövqündə yaradılmış emosiya və təbliğatdır.

*"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi*



Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı müstəsna əhəmiyyətə malikdir. Muxtar respublikada nazirlik, komitə və idarələrin, təhsil müəssisələrinin kollektivlərinin muzeyləri ziyarət etməsi, hər şeydən əvvəl, həmin kollektivlərdə çalışan insanlara yaşadıqları bölgədə hansı muzeylərin yerləşdiyi və bu muzeylərin profili haqqında məlumat vermiş oldu. Bunu ona görə qeyd etməyi lazım bilirəm ki, muzeylərə gedən kollektivlərin böyük əksəriyyətini ziyarət zamanı qələm əhlinin nümayəndəsi kimi müşayiət etmişəm. Bu ziyarətlər zamanı bəzi ziyarətçilərin muzeylərdəki eksponatlara təəccüb dolu baxışları məni heç də təəccübləndirməyib. Çünki vəziyyət əvvəldən də mənə məlum idi. Ancaq həmin kollektivlərin nümayəndələrinin muzeylərimizlə bağlı bir il ərzində öyrəndiklərini, daha doğrusu, qazandıqlarını heç nə ilə müqayisə etmək olmaz. Çünki muzeylərə kollektiv gedişlər tarixi keçmişimizin, mədəniyyətimizin öyrənilməsinin hər kəs üçün vacib meyar olduğunu, dəyərlərimizin fərdlər deyil, bütövlükdə cəmiyyətimiz tərəfindən qorunmalı və təbliğ olunmasını ortaya qoydu. Nəticə isə göz qabağındadır: muxtar respublikamızın muzeyləri 2015-ci ildə əvvəlki illərdən daha çox ziyarətçi qəbul edib, muzey bələdçiləri muzeylərdəki eksponatlar haqqında daha çox insana məlumat verib, bununla da tarix və mədəniyyətimiz daha çox təbliğ olunub. Məsələn, ötən il, daha doğrusu, 2015-ci il dekabrın 18-dək Heydər Əliyev Muzeyini 18 xarici ölkədən 1817 nəfər ziyarət edib, muzeyin ümumi ziyarətçilərinin sayı isə 16 min 900-dən çox olub. Naxçıvan Dövlət Tarix Muzeyini isə 2015-ci ildə 38 min 500 nəfər ziyarət edib ki, onlardan 4300-ü xarici vətəndaşlar olub. Muzeyi ziyarət edənlər üçün 1382 ekskursiya təşkil olunub. 2014-cü ildə isə muzeyin ziyarətçi sayı 21 min 914 nəfər olub. Şəhərimizin görməli yerləri ilə tanışlıq zamanı ən gözəl məkanlardan biri də "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksidir ki, bu ünvan da daim turistlərin diqqət mərkəzində olan obyektlərdəndir. Kompleksdən aldığımız məlumata görə, əvvəllər bu ünvana il ərzində 30-32 min ziyarətçi gəlirdi. Ötən il isə kompleksi 63 minə yaxın insan ziyarət edib. Ziyarətçilərin 7 mindən çoxu xarici turistlər olub. Belə faktları şəhərimizdə yerləşən digər muzeylər haqqında da demək mümkündür.

*Gəldiyimiz ümumi nəticə isə bundan ibarətdir ki, Naxçıvan şəhərində, ümumilikdə isə muxtar respublikamızda yerləşən muzeylər 2015-ci ili uğurla başa vurublar. Belə ki, Naxçıvan muzeyləri dövrünün ən çox ziyarətçilərini ötən il qəbul ediblər. Ziyarətçi sayının artmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məlum sərəncamı ilə yanaşı, muxtar respublikamızın beynəlxalq əlaqələrinin güclənməsi və regionda beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi də mühüm rol oynayıb.*

**Səbuhi HƏSƏNOV**

# İnformasiya-kommunikasiya texnologiyalarının və elektron resursların təhsildə istifadə imkanları

*Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişaf etdirilməsi hər bir ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biri kimi son dərəcə əhəmiyyətlidir. Qloballaşan dünyada bu texnologiyaların sürətli inkişafı və yayılması bəşəriyyətin inkişafı üçün geniş imkanlar yaradıb. Xüsusilə son dövrlərdə dövlətimiz tərəfindən bu sahədə bir sıra kompleks tədbirlər həyata keçirilib və keçirilməkdədir. Bunu muxtar respublikamızın timsalında da görmək olar. Belə ki, regionumuzda informasiyalaşdırma sahəsində görülən işlərin bəhrələri göz qabağındadır. Bu istiqamətdə qarşımızda duran əsas vəzifələrdən biri yeni informasiya texnologiyalarının təhsilə vaxtında və səmərəli tətbiq edilməsidir.*

Fikrimizcə, kompüter biliklərinin əsası məhz orta məktəbdə qoyulmalıdır. Bu vaxta qədər uşaqların kompüterdən istifadəsi düzgün deyil. Çünki məktəbəqədəryaşlı uşaqların kompüterdən istifadəsi onların sağlamlığı üçün çox təhlükəli ola bilər. Yalnız məktəbdə şagirdlərə bu sahə haqqında məlumat verilməli, onların sərbəst şəkildə kompüterlərdə işləmələrinə şərait yaradılmalıdır.

Xatırlayıram ki, bizim təhsil aldığımız dövrdə məktəbimizdə indiki kimi müasir kompüter avadanlıqları yox idi. Həmin dövrdə kompüteri açıb-bağlamağı bacaran şəxslərə belə, hörmətlə yanaşılırdı. O vaxtla indini müqayisə etsək... Əslində, gəlin heç müqayisə etməyək. Çünki bu müqayisə heç bir şəkildə düzgün olmayacaq. İndi yaradılan şərait, iş yerlərimizə, təhsil müəssisələrinə, mədəniyyət ocaqlarına verilən kompüterlər inkişaf etmiş müasir texnologiyanın son nailiyyətləridir.

Naxçıvanımızda İKT güclü inkişaf yolu keçib. Məktəblərimizdə texnologiya, informatika fənləri tədris edilir. Ən əsası isə tədris olunan fənlər, sadəcə, tədris olunmur, praktik əhəmiyyətli təcrübələrə geniş yer verilir. Hal-hazırda Naxçıvanın ən ucqar kəndinin məktəbində belə, son model bilgisayarlarla təchiz edilmiş kompüter otaqları mövcuddur. Məktəblərdə tam ixtisaslı kadrlar bu fənni tədris edirlər. Universitetlərimizin İnformasiya texnologiyaları ixtisasını hər il çox sayda tələbə bitirir. Bu isə İKT sahəsinə olan marağın ən bariz nümunəsidir. Ümumtəhsil məktəblərində 3700 kompüter, 600-dən çox elektron lövhə vardır. Məktəblərdə interaktiv tədris metodlarından istifadə olunur, elektron və distant təhsil tətbiq edilir. Təhsil müəssisələri ilə muzeylər arasında yaradılan interaktiv əlaqələr son illərin mühüm nailiyyətlərindəndir.

XXI əsr yüksək kompüter texnologiyaları əsridir. Bu əsrin təlim metodu ənənəvi təlim prosesindən fərqlənir. Kompüter və elektron texnologiyalar həyatımızın böyük bir hissəsini təşkil edir. Kompüteri bilməyən üçün təhsil almaq, elmi yaradıcılıqla məşğul olmaq çox çətindir. İndi İKT yalnız təhsil prosesini təmin edən üsul deyil. İKT məktəblinin müstəqil qavrama qabiliyyətini gücləndirmək üçün yeni imkanlar açır.

Məktəblərdə istifadə olunan elektron lövhələr də tədrisin inkişafında əhəmiyyətli rola malikdir. Elektron lövhə adi lövhə, hətta proyektor qoşulmuş kompüterlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Elektron lövhə müəllimə bir çox illüstrativ



vasitələrdən (şəkil, xəritə, video və sair) geniş istifadə imkanı verir. Bu da şagirdlərin tədris materiallarını daha yaxşı mənimsəmələrinə kömək edir. Çoxlu sayda funksiyalara malik olan interaktiv elektron lövhə həm müəllimlərin, həm də şagirdlərin yaradıcılıq potensialının daha da artırılmasına şərait yaradır. Eyni zamanda keçilən dərslərdə elektron lövhələrdən istifadə edilməsi müasir texnologiyaların tətbiqi ilə təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir. Elektron lövhə ilə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və nəticə etibarilə, şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışlarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır.

"Ağıllı" lövhə kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və sair qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da məktəblərdə virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Elektron lövhənin tətbiqi ilə şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini ekranda izləyə bilirlər. Bu isə tədrisi xeyli canlandırır, uşaqların yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərketmə qabiliyyətini daha da artırır.

Hazırda təhsil sisteminin informasiyalaşdırılmasında əsas diqqət elektron təhsil resurslarının hazırlanmasıdır. Bəs elektron təhsil resursları (ETR) nədir?

Elektron təhsil resursları dedikdə tədris məzmunlu elektron forma nəzərdə tutulur ki, onları da səsləndirmək üçün müxtəlif elektron mexanizm və maşınlardan istifadə edilir. Ən müasir tədris resursları kompüterlərdə hazırlanır. ETR adi dərslikdən fərqlənir və onun interaktivliyi şagirdin müstəqil işləməsini təmin edir. Elektron təhsil resurslarını üç qrupa – mətn, tekstoqrafik və multimedia xarakterli resurslara ayırmaq olar. Mətn xarakterli ETR, əsasən, mətndən ibarət olur, mühazirə xarakteri daşıyır və internetdə yerləşdirmək mümkündür. Tekstoqrafik xarakterli ETR-in mətn və daxilində cədvəllər, diaqramlar, multimedia xarakterli ETR-in tərkibində video, animasiya, audio, məzmun və interaktiv üsul ola bilər. Elektron təhsil resursları dedikdə təkcə CD-lərdə olan və müəllimin kompüterdə hazırladığı resurslar nəzərdə tutulmur, bura internet tədris resursları da daxildir. İnternet təhsil sahəsində də böyük imkanlar yaradır. Tədris prosesində internetin rolu və yerini düzgün müəyyən etmək olduqca vacibdir. Bu məsuliyyətli iş fənn müəllimlərinin üzərinə düşür. Tədris internet resurslarının əksəriyyəti heç bir yoxlamadan keçmir, tədrisə uyğun olan materialların seçilməsində hətta müəllimlər üçün də çətinlik yaradır. Bu problemi həll etmək üçün müəllim peşəkar olmalıdır. O, materialları təhlil edib şagirdlərinə məsləhət görməyi bacarmalıdır. İnternetdən səmərəli istifadə zamanı şagird yazı bacarığı, söz ehtiyatı, tez ünsiyyətə girmək və lazımi formada ünsiyyət qurmaq, qarşısındakını dinləmək və sair kimi müsbət keyfiyyət və vərdişlərə yiyələnə bilər.

*Muxtar respublikada elektron resursların təhsildə tətbiqi üçün lazımi şərait yaradılıb. Bütün təhsil ocaqlarında yaradılan kompüter sinifləri, istifadəyə verilən elektron lövhələr elektron təhsil resurslarının tətbiqinə imkan verir. Sevindirici haldır ki, məktəblərdə elektron təhsil resurslarından, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə olunur və bu da öz bəhrəsini verir.*

**Nərgiz İSMAYILOVA**

## Həkim məsləhəti

# Qışda soyuqdan və xəstəliklərdən necə qoruna, immunitetimizi hansı yollarla gücləndirə bilərik

***Yay aylarında 40 dərəcəni ötən istilərin olması, qış fəsli gəlmədən havaların kəskin soyuması ana təbiətin Naxçıvana bəxş etdiyi qeyri-adi iqlimlə birbaşa bağlıdır. Təbii ki, fəsil dəyişkənliyi, hələ bir də bunun mərhələlərlə deyil, birdən-birə baş verməsi insan orqanizminin müəyyən dəyişikliklərə məruz qalmasına səbəb olur. Belə məqamda hər kəs öz sağlamlığı barədə düşünməlidir. Soyuq havalarda özümüzü necə qoruyaq? Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi Məmmədəli Ələkbərova müraciət etdik.***

Həkim bildirdi ki, soyuq havalarda xəstəliklərdən qorunmaq üçün vitaminlər qəbul edilməlidir. Bu, immun sistemini möhkəmləndirər. Eyni zamanda idmanla məşğul olmaq, hərəkətdə olmaq lazımdır. Hərəkətsizlik əzələləri zəiflədir və soyuqdəyməyə həssaslığı artırır.

Havalar soyuduqca bədənin müqavimətinin azalması nəticəsində bədən zəifləyir və xəstəliyə yoluxma halları daha çox müşahidə olunur. Hətta orqanizmdə mövcud olan xəstəliklər soyuq havada daha da kəskinləşməyə başlayır. Mütəmadi olaraq işləyən insanlarda və ya məktəblilərdə bu cür hallara tez-tez rast gəlmək mümkündür.

"Havaların soyuması xroniki xəstəlikləri olan insanlara daha tez təsir edir və bəzi mövsümi xəstəliklər baş qaldırır. Ən çox da aşağı və yuxarı tənəffüs yollarının soyuqlaması problemləri bizi narahat edir. Nəzərə alsaq ki, yuxarı tənəffüs yollarında 15-dən çox infeksiya var, biz bunların hamısını "qrip" adlandırırıq, soyuq hava daxil olması nəticəsində bu infeksiyalar iltihab törədir", – deyən həkim əlavə etdi ki, qış aylarının xarakterik xəstəlikləri soyuqdəymə, badamcıqların iltihabı, faringit-boğaz iltihabı, sinuzit, bronxit və pnevmoniyadır. Soyuqdəymə ilə başlayan bu xəstəliklər diqqət edilmədikdə bəzən ağır fəsadlar yarada bilir. Əlamətləri halsızlıq, qızdırma, boğazda yanma, burun tutulması, axması və əzələ ağrılarıdır. Yaşlı nəslin nümayəndələrinə, eləcə də ürək-damar, təzyiq xəstəliklərindən əziyyət çəkənlərə qrip peyvəndi olmalarını məsləhət görürlər. Çünki temperatur dəyişkənliyinə məruz qalan insan orqanizmi zəifləyir, gücdən düşür və temperatur dəyişkənliyinə hazır olmadığı üçün müxtəlif xəstəliklərə yoluxma ehtimalı artır. Çoxları qış xəstəliklərinin öz-özünə keçəcəyinə ümid edərək onlara fikir vermir. Amma unutmayaq ki, qış mövsümündə başlayan xəstəliklər bütün dünyada ən çox rast gəlinən və ən çox iş qüvvəsi itkisinə səbəb olan xəstəliklərdir.

Hazırda hava şəraitindən asılı olaraq qripin və digər xəstəliklərin, necə deyərlər, "hökm sürdüyü" vaxtdır. Qrip yaşından asılı olmayaraq, hər bir insana tez yoluxan bir xəstəlikdir. Qrip həm də orqanizmdə cürbəcür xəstəliklərin təməlini qoyur. Çoxları qripə ciddi yanaşmır. Onun yüngül bir xəstəlik olduğunu düşünüb, o qədər də ciddi qəbul etmirlər. Ancaq unutmaq olmaz ki, qrip faringit, sinuzit, haymorit kimi xəstəliklərin başlanğıcıdır; həm də böyrək patologiyası yaradır. Xəstəlik zamanı ağciyər həssaslaşır. Bu zaman insanın orqanizmi zəifdirsə, xəstə rütubətli şəraitdə çalışırsa, normal qidalanmırsa, o, vərəmə də yoluxa bilər. Qripin ən çox yoluxma səbəbi ortaq istifadə edilən əşyalardır. Buna görə də qripə yoluxmuş adamdan uzaq gəzmək, onun əli dəyən əşyalardan istifadə etməmək məsləhət görülür.

### *Bu xəstəliklərin yayılmaması üçün fərdi gigiyena vacibdir*

Həkimin sözlərinə görə, bu xəstəliklərə ən çox uşaqlar, diabet, astma kimi xroniki xəstəliyi olanlar yoluxurlar. Yetkinlik yaşına çatmış insanlar isə yorğunluq, stress, qidalanma nizamsızlığı və həddən artıq soyuğa məruzqalma kimi hallarda bu xəstəliklərə tutula bilərlər. Məktəblər, kafelər, fabriklər, iş yeri və ofislər xəstəliklərin asanca yayıldığı mühitlərdir. Qrip və bu kimi yoluxucu xəstəliklərdən qorunmaq üçün xəstələrlə yaxın təmasda olmaq olmaz. Əl təmizliyinə çox diqqət yetirilməlidir. Xüsusilə bağlı məkanlardan, havalandırılması yaxşı olmayan yerlərdən mümkün qədər uzaq durmaq lazımdır. Xəstəlik xəstə və ya daşıyıcı kəslərin asqırması və ya öskürməsi, onun tutduğu qapı qolu, telefon və ya dəsmal kimi ortaq istifadə əşyalarından asanlıqla keçə bilər. Bunun üçün hər bir fərd müəyyən qaydalara və normalara əməl etməlidir. Yəni sanitar və gigiyenik qaydalara riayət edilsə, bu cür xəstəliklərdən özümüzü qorumuş olarıq.

### *Soyuq havada düzgün geyinmək də xəstəlikdən qoruyur*

Soyuq hava bədən temperaturunu aşağı salır və bədəndəki müqaviməti azaldır. Soyuqdəymə, qrip kimi xəstəliklərə tutulmamaq üçün yaxşı qidalanmaqla yanaşı, düzgün geyinməyin də böyük əhəmiyyət daşıdığını bildirən həkim Məmmədəli Ələkbərov məsləhət görür ki, qalın və tək parça geyimlər yerinə, incə və qat-qat formada olan paltarlar geyinilsin: "Məsələn, qalın bir köynək və bunun üstünə qalın bir palto geyinmək doğru deyil. Bu həm fiziki fəaliyyəti çətinləşdirir, həm də tərləməyə səbəb olur. Tərli-tərli soyuq havaya məruz qaldıqda isə qrip və başqa xəstəliklərdən yaxa qurtarmaq olmur. Ən düzgün geyim şəkli qat-qat və pambıq parçadan olan paltarlar geyinməkdir. Ən vacib amil isə soyuq havada baş və üz nahiyəsinin soyuqdan qorunmasıdır".

### *Xəstəliyə yoluxmamağın əsas yolu düzgün qidalanmaqdır*

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi Məmmədəli Ələkbərovun sözlərinə görə, soyuq havalarda qidalanmaya daha çox diqqət edilməlidir: "Pomidor, xiyar, bibər kimi qışa xas olmayan tərəvəzlərlə qidalanma məhdudlaşdırılmalıdır. Çay və qəhvə yerinə C vitamini tərkibli cökə, adaçayı, həmərsin kimi bitki çaylarının içilməsi məsləhətdir. Bundan başqa, C vitamini ilə zəngin olan kivi, portağal, gül kələm, ispanaq kimi meyvə və tərəvəzlərə üstünlük verilməli, C vitamini itkisinin qarşısını almaq üçün salatlar və meyvə şirələri qəbul edilməlidir. Həftədə bir neçə dəfə balıq yeyilməsi, həmçinin balıq yağı qəbul etmək də məsləhətlidir". Həkim normal miqdarda zülal qəbul etmək üçün qida rasionumuzdan süd, qatıq, pendir, ət məhsullarını əskik etməməyin vacibliyini də bildirdi: "Çox şirin və şəkərli qidalardan da az istifadə yararlıdır. Əsasən, qablaşdırılmış məhsullardan, kolbasa, sosiska məmulatları, yağlı ətlər və həddindən artıq yağlı qidalardan uzaq durulmalıdır. Soyuq aylarda enerji qaynağı sayılan və B qrupu vitaminləri ilə zəngin olan paxlalı bitkilərlə qidalanmaq zəruridir. Qızardılmış, qovrulmuş qidalar qəbul etmək yerinə, buxarda bişirilmiş və ya qaynadılmış qidalara daha çox üstünlük verilməlidir. Təbii ki, qış mövsümü ilə birlikdə Günəş yavaş-yavaş öz təsirini itirdiyindən D vitamininə ehtiyac yaranır. Xüsusən də azyaşlı və körpə uşaqlarda. Odur ki, soyuq aylarda sümük və diş sağlamlığı naminə lazımlı olan D vitamininə olan ehtiyacı qarşılamaq üçün günəşli günlərdə təmiz havada gəzmək lazımdır. Ən azından gün ərzində 10 dəqiqə təmiz havada olmaq məsləhətdir".

*Əziz oxucular, soyuq qış günlərində, həmçinin fəsil dəyişkənliyində bəzi qaydalara əməl edərək sağlamlığımıza ciddi diqqət yetirməliyik. İstənilən halda orqanizmimizdə hər hansı bir narahatçılıq hiss etdiyimizdə mütləq həkimə müraciət olunmalıdır. Sağlamlığımızın keşikçilərinin məsləhətlərini dinləyək ki, özümüzü soyuqdan və xəstəliklərdən qoruya bilək.*

**Gülnar YÜZBAŞIYEVA**

# "Araz-Naxçıvan"ın futbolçusu Azərbaycan milli komandasına dəvət olunub

19 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının seleksiya xarakterli təlim-məşq toplanışı keçiriləcək. Bakıda baş tutacaq təlim-məşqlər yanvarın 10-dan 17-dək davam edəcək. Hazırlıq prosesi çərçivəsində yığmamızın yanvarın 12-də "İnter", 14-də "Sumqayıt" və 17-də isə "Neftçi" klubunun əvəzedici komandası ilə yoldaşlıq oyunlarının keçirilməsi nəzərdə tutulub.

Milli komandanın bu dəfə keçirəcəyi təlim-məşq toplanışına "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun futbolçusu Turqay İbrahimov da dəvət olunub. İlk dəfə Azərbaycan millisinin formasını geyinəcək olan T.İbrahimov fikirlərini bizimlə bölüşdü: "Bu, mənim üçün sevindirici haldır. İlk dəfədir, milliyə dəvət olunuram. Çalışacağam ki, Azərbaycan yığmasının heyətində baxımlı oyun sərgiləyim və "Araz-Naxçıvan"da qazandığım təcrübəni milli komandada nümayiş etdirim".

**✍ Ceyhun MƏMMƏDOV**

# Ötən il ailə dəyərlərinin qorunması diqqət mərkəzində saxlanılıb

***Ailələr xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayır. Sevindirici haldır ki, cəmiyyətimizdə ailə institutu özünün sosial təyinatını və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə qoruyub saxlamaqdadır. Bu da muxtar respublikada ailə dəyərlərinin əsrlərdir olduğu kimi qorunması və onun təməl prinsiplərinin möhkəm dayaqlar üzərində olması ilə bilavasitə bağlıdır.***

Ailə dəyərlərinin qorunması, yeni nəslə aşılanması, yeniyetmə və gənclərin bu dəyərlərə sahib çıxması və yaşatması istiqamətində dövlətimiz tərəfindən ardıcıl tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə dəyərləri, ailə münasibətlərinin tənzimlənməsi, internet və sosial şəbəkələrdən qeyri-düzgün istifadənin fəsadları ilə bağlı ötən il 12 dəfə muxtar respublikanın rayon və kənd mərkəzlərində tədbirlər keçirilib. Uşaq və gənclər arasında 3 dəfə şeir, inşa yazı və rəsm müsabiqəsi, 4 dəfə qadınların əl işlərindən ibarət sərgi təşkil edilib, xüsusi qayğıya ehtiyacı olan qadınlar milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarına cəlb olunub.

Muxtar respublikanın şəhər, rayon, kənd tam orta məktəblərində və məktəbdənkənar təlim-tərbiyə müəssisələrində şagirdlər arasında 23 dəfə maarifləndirici söhbətlər aparılıb və seminarlar keçirilib. Keçirilən tədbir və seminarlarda iştirakçılara komitə tərəfindən hazırlanmış 2600-dən artıq ailə dəyərləri mövzusunda maarifləndirici broşür paylanılıb.

Tədbirlərdə milli dəyərlərimizin tərkib hissəsi olan ailə institutunun qorunması və onun inkişafının təmin edilməsi, ailə münasibətlərində adətənənəyə yer verilməsi, sağlam ailənin formalaşmasının əsasları, ailə üzvlərinin hüquq və vəzifələrinin düzgün yerinə yetirilməsi, müasir texnologiyaların gənc ailələrə təsiri istiqamətində söhbətlər aparılıb. Yeni nəslin gələcəkdə quracağı ailənin bütövlüyünü qorumaq üçün ailə dəyərlərinin vacibliyi, ailələrdə böyüyən uşaqların sağlam yaradıcı əməyə alışmaları, zərərli vərdişlərdən çəkinməkləri, təhsil-tərbiyə məsələləri, ümumiyyətlə, sağlam həyat tərzi yaşamağın yollarından ətraflı bəhs olunub.

Uzunömürlü ailələrin keçdiyi həyat yolunun, bütövlüyünün sirlərinin gənc ailələrə aşılanması, ailə dəyərlərinin təbliği məqsədilə muxtar respublikada yaşayan 9 uzunömürlü ailənin evlilik yubileyləri qeyd edilib, uzunömürlü ailələrlə yeniyetmə və gənclərin görüşü təşkil edilib. Bundan əlavə, komitə əməkdaşlarının kütləvi informasiya vasitələrində ailə dəyərlərinin təbliği ilə bağlı maarifləndirici çıxışları olub.

Humanist olmaq, qayğı göstərmək, xüsusi qayğıya ehtiyacı olanları sevindirmək ailə dəyərlərimizdəndir. Bu məqsədlə ötən il 39 ahıl tənha qadına və aztəminatlı ailəyə baş çəkilib, onların ümumi problemləri, o cümlədən kommunal problemləri ilə maraqlanılıb, aradan qaldırılması ilə bağlı işlər görülüb, onlara məişət əşyası və ərzaq payı verilib. Həmçinin 105 nəfər aztəminatlı ailələrin uşaqları, sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar geyim dəstləri ilə sevindirilib.

Ailə dəyərlərinin qorunması və gənclər arasında təbliği ilə bağlı müvafiq tədbirlər cari ildə də davam etdiriləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Növbəti maarifləndirici tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Əliabad Qəsəbə Mərkəzində maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açaraq son illər muxtar respublikada infrastruktur quruculuğu istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədov qış mövsümündə vətəndaşlar tərəfindən qaz və elektrik cihazlarından istifadə edilməsi zamanı dəm qazından zəhərlənmə hallarının qarşısının alınması və keçirilən reydlərdə vətəndaşların maarifləndirilməsi sahəsində görülmüş işlər haqqında məlumat verib.

Tədbirdə nazirliyin bölmə rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidov payız-qış mövsümündə vətəndaşların təbii qaz və elektrik enerjisindən istifadəsi zamanı israfçılığın qarşısının alınması, yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi ilə bağlı görülmüş işlərdən danışıb. O deyib ki, yaşayış evlərində və mənzillərdə qaz cihazlarından və sobalarından istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına əməl olunması sağlamlığımızın təminatıdır. Əhali arasında dəm qazından zəhərlənmə hallarının baş verməməsi üçün idarə, müəssisə və təşkilatların qazanxanalarında texniki və yanğın təhlükəsizliyi tədbirlərinə əməl olunması, qazanxanalarda işləyən mövsümi işçilərin, ocaqçıların peşə məktəblərində kurs keçmələri günün tələbidir.

Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin sahə ustası Elxan Abbasov şəhər ərazisində qaz təsərrüfatından istifadə ilə bağlı həyata keçirilmiş qabaqlayıcı tədbirlərdən danışıb, Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsinin baş mühəndisi Nəsimi Novruzov inzibati və yaşayış binalarının qızdırılması üçün quraşdırılmış qazanxanalarda təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi məqsədilə görülmüş qabaqlayıcı tədbirlər haqda məlumat verib.

Sonda iştirakçılara Fövqəladə Hallar Nazirliyi tərəfindən tərtib olunmuş "Qaz və elektrik cihazlarının istismarı zamanı yanğın təhlükəsizliyi qaydaları" adlı tövsiyə xarakterli yaddaş kitabçaları, dəm qazı ilə bağlı videomaterial və slaydlar təqdim edilib.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 20